# Tanrı şairlərdən daha moderndi

**"... Hər halda insanın əsas yeməyi olan, bizi heç vaxt zara gətirməyən çörəyə müraciət etdiyimiz kimi, ədəbiyyatda da adi, anlaşılan əsərlərə müraciət etməli oluruq. Elə gözəllik də, sağlamlıq da, sadəlik də hamının sevdiyi şəffaflıqdadır. Yəqin bizim sevə-sevə oxuduğumuz əsərləri yazarkən Mopassan çox əmək sərf edib, yorulub. Əgər bu yorğunluq oxuda duyulmursa, əsərdən qəlbimizə gözəllik axırsa, ondan qüvvə alırıqsa, deməli, sərf edən əmək özünü doğruldub. Mopassanın əsərini oxuyub başa vuranda adam təmiz havada gəzintidən qayıdıbmış kimi, özünü şən və gümrah hiss edir."**

Bu sözlər Emil Zolyanın Mopassan haqqında dedikləridir. Mopassan ən sevdiyim yazıçıdır. Bəlkə də bir yaxınlıq duymağımdandır, ya da hekayələrdəki doğmalıq, bəlkə də hekayələrdəki obraz uyğunluğu, özünün dili və.s də səbəb ola bilər bu sevgiyə.

Eynilə onun ədəbiyyat haqqında yazılarını oxuyarkən, tənqidi məqalələrinə göz atarkən təmiz havada gəzintidən qayıdıbmış kimi hiss edirəm özümü. İkisinə qarşı da eyni hissi duymaq, oxşar düşüncələrə qapılmaq... Səbəb nədir ruhumda dolaşan enerjiyə? Bəlkə də ona olan düşüncələrimi Mopassan adıyla sığortalıyıram?! Bəli, mən onu sevirəm! Mütləq ki, səbəb budur. Şeirlərdə müəllifin belə düşünmədiyi yeni poetik çalarlar tapmasını, oxucuya istənilən şairi sevdirə bilməsi, bəyənmədiyin müəllifi sənə poetik axtarışlarıyla qəbul etdirə bilmək bacarığını, müasir millilik yanaşmasını sevirəm.

### *Ədəbi tənqid?*

Ədəbi tənqid öldü, onu tənqidçilər öldürdü. Ya ciblərindən siçanı qovmaq eşqinə görə, ya aşırı tərifə, ya kasıb istedadlını insafsızca vurub ondan istedadsız "bəyzadə"lərini tərifləməklərinə görə. Yox, yenə yanlış etdim, ədəbi tənqid var. Çağdaş şairlərin yeni, poetik axtarışlarla dolu şeirləri üstündədir. Barmaqla sayılacaq tənqidçilər arasındadır. Azərbaycan ədəbiyyatının yükünü gələcəkdə onun çiyinlərinə yükləmək olar. Xanım olsa da. Eybi yox, bu dəfə centlmenliyi o, etsin - bir xanım. Ədəbiyyatın centlmenliyini. "Düşüncə zamanı - ədəbi tənqid diskurs kimi" kitabını vərəqləyirəm.

***Kitabda şərq fəlsəfəsi hissləriylə qərb düşüncəsi birləşdirilib. Deyəsən, mənim haqqımda bu sözlərlə bəhs etmişdi. Daha doğrusu, ikisini birində birləşdirən müəlliflər yox kimidir və ya barmaqla sayılacaq qədərdi. Amma kitabdakı bəhs edilən müəlliflərin kimisi şərq hisslərində, digəri isə qərb düşüncəsindədir. Bütünlükdə onları birləşdirəndə kitab dediyimiz formata uyğunlaşır.***

Üzgörənlik feminizmi yoxdur. Xanım-kişi və regionçuluq ayrıcalığı edilmədən sırf mətn yönümündən yanaşılıb. Bəzi müəlliflərə, ümumiyyətlə yazı həsr etməmək olardı, deyərəm özüm-özümə.

Aha, bu! Bu axı regionçudur, ancaq öz yerlilərini tərifləyib dağ başına qoyur. Niyə ondan yazıb?

Digərinə rastlayıram, axı, bu yeni üslub və.s adıyla özünü ədəbiyyata sırımağa çalışan biridir. Nə bu, yenilikdir, nə də ki, yazılanlar ciddi mətn. Onda niyə?

Bəs, bu? - Bu isə plagiat şairdir başdan-ayağa. Başqa şairdən danışmaq olardı onun yerinə.

### *Sırf həmin müəlliflər haqqında*

yazıları oxuduqdan sonra gülümsəyirəm. Tənqidçi onlardan elə bəhs edərək, bəzi məsələlərdə elə göndərmə edir ki, "gözü iti" oxucu bunu dərhal tutar. Eyni zamanda tənqidçinin onlar haqqında yazmasına haqq qazandırar, onlardan bəhs etdiyi yazının qayəsinə də, göndərmələrə də. Burada əhsən deyirsən. Tənqid etmədən tənqid edə bilmək bacarığına. Məhz bu yazılarda tənqid etmədən göndərmələrlə tənqid etmək əsl ustalıqdır. Bir növ şifrəli əlifbalar kimi. Sən bildiyin əlifba ilə başqa mətni oxuyursan, peşəkarsa əsl mətni.

Düşüncə zamanı - əslində, zamanı sıfırlamaq da demək olar. Düşüncə həmişə var. Tanrı kimi. Daha doğrusu, enerji kimi. Bir qədər yarımafioz, yarı ideoloji əsaslarla çəkilmiş kifayət qədər uğur qazanan "Lyusi" filmini xatırlayıram. Kitabda zamana səyahət var. Müxtəlif ədəbi, tənqidi kitablarda zaman səyahəti mümkündür. Daha doğrusu, gözünün önündə canlanması, sadəcə, zamanı kitabda oxumaq, vəssalam. Amma "düşüncə zamanında" düşüncə, zaman sənin qarşına gəlmir, sən düşüncəyə, həmin zamana gedə bilirsən. Fərq buradadır. Elə Lyusi kimi...

Mətni duya bilmək bacarığı, müəllif kimi mətnin transına düşə bilmək manevri, onu duyub, müəllifin bəzən öz əsərinə izah verməkdə çətinlik çəkdiyi halda şirin



dillə şərh verməsi... O, uğurlu yazıçı ola bilərdi, hətta çox uğurlu. Üzr istəyirəm, yanlışlığa yol verdim. Tənqidin nəsr diliylə yazılması çaşdırdı məni. O, şair olardı, hə, dəqiq! Elə şair.

Müxtəlif cərəyanlar, o cərəyanlara məxsus müəlliflər haqqında bəhs edilir. Yanaşma birtərəfli deyil, heç bir cərəyana, müəllifə bağlı olmayan düşüncə tərzində şərh verilir. Bu, tənqidçi xanımın obyektivlik manevrini daha da artırır.

**İncə qatlarla olsa da tənqidçinin öz nəfəsi, daha doğrusu, yanaşmasını duymaq olar. Yuxarıda bəhs etdiyimiz kimi, modern millilik və şərq-qərb düşüncələrinin balansı, heç birindən imtina etmədən hər ikisini qəbul edərək yeni birləşdirici model öz əksini tapır. Ola bilsin, bu, müəllifdə Əli bəy Hüseynzadə, digər cümhuriyyətçilərin formalaşdırdığı düşüncə tərzindən irəli gəlir. İstənilən halda insan bir düşüncəyə gələrək özündən öncəkilərin düşüncələrinə uyğunluğunu görə bilər. Belə olduqda şəxs öz düşüncəsindən, fikirlərində daha əmin olur və daha qətiyyətli yazır. Mətndə öz qətiyyətini göstərərək, nə nala vurur, nə mıxa. Özü başlayır, özü də nöqtəsini qoyur. Eynilə kitabdakı mətnlər kimi. Bəli, məhz qeyd etdiyim kimi düşüncə arealının özündən öncəki ideyalarla təsdiqini tapması, bunun ona verdiyi ədəbi əminlik tənqidçiyə kitabdakı mətnlərində daha azad, daha sərbəst manevrlər etmək şəraitini yaradıb.**

### *Müəlliflərin*

Tanrı məsələlərinə toxunulur. Desəm ki, tənqidçinin Tanrıya yanaşma prizması, müəlliflərin tanrılaşma, Tanrıyla söhbətlərinə bu aspektdən baxması ürəyimcədir. Çünki bəndənizin də tanrısı müəyyən dərəcədə odur. Müəlliflərin bu tip şeirlərində, hekayə və romanlarında tənqidçi Tanrını daha çox enerji kimi axtarır. Bəli, o bunu özü deməyə, yazmaya bilər. Amma mənim izahlarda tapdığım budur. Daha çox sufiyanə tanrı axtarışı klassikada ilişib qalmır, hər zaman olduğu kimi müasir sufiyanə ideallarına çevrilir. Bir növ buna modern tanrı da deyə bilərik. Onun düşüncə zamanında Tanrı daha moderndi. Müasir və çağdaşdır. Hətta yaratdığı şairlərdən belə daha moderndir.

Bəzən Freydist qatlara tənqidçinin meyl etməsi, daha doğrusu, bu enerjinin yaratdığı mətnlərə diqqət çəkməsi gözümdən yayınmadı. Daha çox nədən yazmaq deyil, necə yazmaqdır - onun yanaşmalarından bunu hiss edirəm. Təbii ki, burda bir və ya iki istisnanı əlavə etməklə. Məncə, daha doğrusu, məncə də deyil, milli və dövlət məsələsindən dairəni keçməyi qəbul etmir, hətta buna qarşı mövqe sərgiləyəcək səviyyədədir.

Həmçinin estetik yanaşma, estetik gözəllik nə deyil, necə kimi önəmlidir ona. O səbəbdən erotizm çalarları onun qələmindən yan keçmir. Bu barədə şairlərin poetik axtarışlarını üzə çıxarır, fikir oxşarlıqlarını, fərqliliklərini deyir və ya yeni tapıntıya öz nidasını qoyur.

Hələ də ölülərdə ilişib qalmışıq. Əllər yuxarıdadır. Ölü şairləri alqışlayıb, diri şairləri o əllərlə sillələmək üçün. Əlbəttə, keçmiş də tariximizdir. Zaman-zaman onlara istinad, səyahət, eyni zamanda qiymətləndirmək lazımdır. Bir çox tənqidçilər bunu-yəni keçmişdə ilişməyi, çağdaşlarını diqqətə almamağı gələcəyə görə edir. Necə? O hələ sağdır, sabah mənə münasibəti necə olacaq bilmirəm. Öləndən sonra düşünərik. Ya da vəzifəyə keçsə...

**Xanım tənqidçi isə çağdaş ədəbiyyata, xüsusən poeziyaya əlahiddə diqqət göstərir. Düşüncə zamanında zaman aşılırsa, gələcək zamanı gözləməyə ehtiyac yoxdur. Gələcək zamanı indiki zamanda yaşamaq olar. Və ya keçmiş zamanı gələcəkdə yaşamaq olar. Zaman yerdəyişimləri düşüncədə mümkündür. Necə ki, müəllif bunu məharətlə bacarıb. Bu gün çağdaş Azərbaycan poeziyasını öyrənmək, bu poeziyaya bələd olmaq üçün qısa deyişlə adlandırdığım "Düşüncə zamanı"(yalnız bununla kifayətlənmək də çağdaş poeziyaya haqsızlıq olduğundan müəllifin digər yazılarını da demək mütləqdir) və digər məqalələri dərslik kimi tədris olunacaq səviyyədədir.**

### *Şərq və Qərbin vəhdəti*

onların sərhədi olan Qafqazdır. O sərhədi həm ədəbiyyat, həm milli düşüncəyə görə "dağıtmaq" lazımdır. Harasa (Şərqə və ya Qərbə) çay kimi axmaqdansa, yerində hansısa yönə axmayan, əksinə, hər yöndən axan çayları özündə birləşdirən dəniz olmaq (öz kökünə qayıtmış-şərq, modern-qərb düşüncə) önəmlidir. Necə ki, Şah İsmayıl İslam, sufi və digər milli ünsürləri özündə birləşdirən qızılbaşlıqla həm siyasi, həm ədəbi imperiyanı qurdu.

**Eyni zamanda bu birləşdirici qayəyə Heydər Əliyevin gətirdiyi yeni müasir milliliyi - modern azərbaycançılığı aid edə bilərik. Tənqidçinin bu yönlərdə axtarışları gələcəkdə onun özünün nə qədər haqlı olduğunu göstərəcək. İndi görmək üçün düşüncə zamanında zamana səyahət etməyi bacarmaq lazımdır.**

***P.S.*** *Məqalə tənqidçi Elnarə Akimovadan bəhs edir.*

**Emin PİRİ**

## Bakıda taksilər dezinfeksiya olunur



**Paytaxtın ictimai nəqliyyat sektorunda əksepidemik tədbirlər davam edir. Bu çərçivədə müntəzəm marşrut xətt avtobusları ilə yanaşı taksi minik avtomobilləri də dezinfeksiya olunur.**

Bununla bağlı Bakı Nəqliyyat Agentliyi tərəfindən taksi fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə məktub ünvanlanıb.

Diqqətə çatdırılıb ki, koronovirus (COVİD-19) xəstəliyinin ölkəmizdə yayılmasının qarşısının alınması üçün taksi minik avtomobillərinin də dezinfeksiyası zəruridir.

Növbəti dezinfeksiya tədbiri "Salam Taksi" şirkətində təşkil olunub. Dezinfeksiya zamanı taksi minik avtomobillərinin salonu, yük hissəsi və xarici hissələri xüsusi dərman məhlulları ilə təmizlənib.

## "Üçüncü Bahar" Xaçmazda

**BMT-nin Əhali Fondunun və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə həyata keçirdiyi "Batan yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanla yaşlıların rifahının təşviq edilməsi" layihəsi çərçivəsi yaşlı və ahıl şəxslərin fəal iştirakını təşviq edən məlumatlandırma kompaniyasının növbəti görüşü Xaçmaz şəhərində baş tutdu.**

80-dək xaçmazlı təqaüdçünün iştirak etdiyi tədbirdə iştirakçılara fəal yaşlanma barədə ətraflı məlumat verildi, həmçinin yaşlı insanların layihədən götürə biləcəkləri töhvə barədə ətraflı bəhs edilidi

Tədbiri giriş söz ilə Xacmaz rayon İcra Hakimiyyətinin nümayəndəsi Yaqut Mənsimova açdı. O, rayonda ilk dəfə keçirilən bu tədbirin gələcəkdə də davam etdirilməsini arzuladı. Sonra sözü layihənin rəhbəri Nərmin Qəniyevaya verildi. İB-in şəhər əhalisi arasında apardığı sorğuları video-çarxla təqdim etdi. Növbəti dəfə çıxış edən Azərbaycan Sahibkarlar Təşkilatı Milli Konfederasiyasının Xaçmaz Regional nümayəndələyinin sədri Famil Baxışov tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi.

Rayon Veteranlar Şurasının sədri Əli Mustafayev, Ağsaqqallar Şurasının sədri Fərhad Şeydayev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında dövlət sosial müdafiə fondu Xaçmaz rayon şöbəsinin aparıcı məsləhətçisi Mübariz Bağırov, BBT-nin əhali fondunun nümayəndəsi Kamran Əliyev, İctimai Birliyin üzvü Nəzakət Əhmədova çıxış etdilər. Nəzakət Əhmədov Xaçmazda "Yaşa" mərkəzinin yaradılmasını təklif etdi. Layihənin rəhbərləri bu təklifi dəyərləndirəcəklərini bildirdilər. Həmin gün doğum günü olan Rzabala Tarıquliyevin 72 yaşının qeyd edilməsi də tədbiri rəngarəng etdi. İstər Camal müəllimin, Xanım xanımın rayondakı "Ulduzlar" ədəbi birliyinin sədri Fərzalı müəllimin söylədiyi şeirlər hər kəsin xoşuna gəldi.

Daha sonra psixoloq Səidə Əhmədova "Xüsusilə yaşlı insanlar üçün daha aktual olan əhval-ruhiyyəni daim yüksək səviyyədə necə saxlamalı" mövzusunda iştirakçılar qarşısında çıxış etdi, maraqlı dialoqlar qurdu.

Ümumiyyətlə, layihənin gedişatında həm Bakıda, həm də regionlarda keçirilən maarifləndirici ictimai görüşlər bunu deməyə əsas verir ki, fəal yaşlanma mövzusu əhalinin yaşlı qrupları tərəfindən müsbət qarşılanır və fəal yaşlanmaya böyük maraq artır.

Sonda İB-nin əməkdaşı Leyla xanım yaşlıların əl işlərindən ibarət səyyar sərgi ilə hamını tanış etdi.Tədbir iştirakçıları "Üçüncü Bahar" İctimai Birliyinin əməkdaşı Narxanım Paşayevanın əl işlərindən olan qurama və digər toxumalara həvəslə baxdılar.

**İB-in layihə rəhbəri və tədbirin aparıcısı Nərmin xanım, Səidə xanım və digər üzvlərin fəaliyyəti alqışlarla qarşılandı. Xaçmazlılar onlara dərin minnətdarlıqlarını bildirdilər.**

**Nəzakət ƏHMƏDOVA, "Üçüncü Bahar" İB-nin üzvü, ilin müəllimi**